**Şövkət Məmmədova, cəsarətli çıxış (1912-1981)**
**Səhnəyə çıxan ilk Azərbaycan qadını**
**Fuad Axundov**

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 5.4 (Qış 1997)
© Azerbaijan İnternational

1912-ci il aprelin 13 Bakı şok vəziyyətində idi. Müsəlman aləmində ilk dəfə idi ki, 15 yaşlı qız çadra örtmədən avropalı qadına xas olan bir geyimdə səhnəyə çıxırdı. Milanda opera sənətini öyrənən Şövkət Məmmədova həmin vaxt Bakıya yenicə qayıtmışdı və Tağıyev teatrında çıxış edirdi. Tamaşaçılar onun ifa etdiyi opera melodiyalarını elə ilk andan bəyəndilər. Lakin buna baxmayaraq onlar Şövkət Məmmədovanın görkəmi ilə heç cür barışa bilmirdilər. Şövkət bu rəmzi aktı köhnə dini adət-ənənələrin əsiri olan cəmiyyətə qarşı öz etiraz səsini ucaltmaq üçün seçmişdi.

Bu vaxta kimi operada qadın rolları qadın paltarı geymiş yüksək tenor səslə oxuyan kişilər tərəfindən ifa edilirdi. Qadın tamaşaçılar isə başqalarının onları görməməsi üçün adətən tünd pərdə ilə örtülmüş ayrı bir bölmədə otururdular.

Həmin gecə tamaşaçıların Şövkətə qarşı olan münasibəti çaşqın və qəzəbli idi. Mütərəqqi fikirli tamaşaçıların bəziləri onun bu cəsarətinə məftun olmuşdular; öz fikirlərində dönməz olan digərləri isə çox hiddətlənmişdilər.

Bu arada isə Tağıyev Teatrında səhnə arxasında dayanmış Üzeyir Hacıbəyov tamaşaçı zalını nəzərdən keçirərək onların qəzəbli münasibətini duyurdu. O, Şövkətə işarə etməyə çalışırdı ki, səhnəni tərk etsin.

Hacıbəyov qoçular tərəfindən yarana biləcək təhlükənin ciddiliyini anlayırdı. Birinci dəfə deyildi ki, Üzeyir Hacıbəyov cəmiyyət normalarına qarşı meydan oxuyan tədbir təşkil edirdi.

Lakin Şövkət təmkinli və qətiyyətli qalmaqda davam edirdi. O, proqramını cəsarətlə axıradək ifa etdi. Bir çox illər keçdikdən sonra o, tamaşaçıların ona hədəqorxu gəlməsinə baxmayaraq ifasını sona çatdırdığına görə fəxrlə öyünəcəkdi.

Teatrın giriş hissəsinin artıq qoçular tərəfindən tutulduğunu anlayan Üzeyir Hacıbəyov və dostları Şövkəti cəldliklə arxa qapıdan çıxardaraq onu orada gözləyən faytona mindirdilər. Faytonçuya isə tapşırdılar ki, atları mümkün qədər sürətlə çaparaq oradan uzaqlaşsın, elə böyük sürətlə ki, “atların nallarından qığılcım parlasın”. Və o, belə də etdi.

Sonrakı bir neçə gün ərzində Şövkət fanatiklərdən qorunmaq üçün neft mədənlərində gizlənməli oldu. Bir az sonra o, Bakını tərk edərək Gürcüstana qayıtdı. Səkkiz il sonra o, tam təhsilli opera müğənnisi və musiqiçi kimi yenidən Bakıya dönəcək və ömrünün qalan hissəsini Azərbaycan formal musiqi təliminin yaranmasına həsr edəcəkdi. Həmin o gecə Şövkətin yaddaşında və eləcə də ölkənin tarixində silinməz bir iz buraxdı.

100 illik yubiley

Bu il (1997) Şövkət Məmmədovanın anadan olmasından 100 il keçir. Onun həyatı Azərbaycan musiqi tarixinin çox vacib bir dövrünü işıqlandırır. Məhz Şövkət Məmmədova və başqalarının cəmiyyət qadağalarına qarşı etiraz səsini ucaldan cəsarətli çıxışları nəticəsində Azərbaycan müsəlman dünyasında qadının ilk dəfə olaraq səhnəyə çıxdığı, opera və balet kimi incəsənət növlərini öyrəndiyi ilk ölkə oldu.

Erkən həyat dövrü

Şövkət Məmmədova 1897-ci il aprelin 18 Tiflisdə (Gürcüstan) anadan olub. Hələ uşaqlıqdan o, öz musiqi istedadına görə tanınırdı. Onun atası çəkməçi idi. Şövkətin səsi atasının bir nəfər varlı müştərisinə elə gözəl təsir bağışladı ki, həmin müştəri Şövkəti Tiflisin aristokrat cəmiyyətinə təqdim etmək qərarına gəldi. 1910-cu ilin martında Şövkət Qafqaz canişini Vorontsov-Daşkov tərəfindən təşkil olunmuş ziyafət məclisində çıxış etmək üçün dəvət edildi. O, orada hamını məftun etdi.

Bir müddət sonra o, Bakıya gələrək məşhur neft milyonçusu və mesenatı Tağıyevin həyat yoldaşı Sona xanımla tanış oldu. Tağıyevlər ailəsi Şövkətin musiqi istedadına elə heyran oldular ki, ona Milanda Doti Ambroziodan musiqi dərsləri almaq üçün maliyyə yardımı təklif etdilər. Və beləliklə Şövkət İtaliyaya yola düşdü.

Lakin səkkiz aydan sonra maliyyə yardımı gözlənilmədən kəsildi və Şövkət geri dönmək üçün lazım olan məbləği çətinliklə toplayaraq vətənə qayıtdı. Şövkət onu himayə edən şəxslərin maliyyə yardımını nə üçün kəsdiyini heç vaxt bilmədi və çox məğrur olduğu üçün bunun səbəbini də soruşmadı.

Məhz bu anlaşılmaz dövrdə o, musiqi cəmiyyətində ilk Azərbaycan operasının bəstəkarı kimi artıq böyük hörmətə malik olan Üzeyir Hacıbəyovla tanış oldu. Üzeyir Şövkətə yazdığı "Ər və arvad" komediyasının tamaşasından sonra sevdiyi musiqi parçalarını ifa etməyə təklif etdi. Həmin musiqi gecəsi Şövkətə yardım etmək üçün təşkil olunacaqdı. Əldə olunan bütün gəlir onun İtaliyada musiqi təhsili alması üçün sərf olunacaqdı. Tək o gecədəki bilet satışından əldə olunmuş vəsait bir neçə illik təhsil xərclərini ödəyə bilərdi. Əgər adı çəkilən tədbir planlaşdırıldığı kimi baş tutsaydı, Şövkətin təhsili davam etdirmək arzuları həyata keçəcəkdi.

Ancaq Şövkət həmin gecə toplanmış vəsaiti əldə edə bilmədi. Qoçular bu pulu daha tez ələ keçirdilər. Və o, yenidən İtaliyaya yalnız 15 ildən sonra dönə bildi. Həmin həlledici gecənin tarixi belə oldu. Gənc

müğənninin təzyiq nəticəsində teatrı tərk etməsinə baxmayaraq ziyalılar bu gecəni mühüm bir qələbə və Azərbaycan mədəniyyət tarixində dönüş nöqtəsi kimi qiymətləndirirdilər.

Təhsil

Hələ Tiflisdə ikən Şövkət yerli musiqi məktəbində 3 il təhsil almışdı. 1915-ci ildə 18 yaşında ikən o, Kiyev Musiqi Konservatoriyasına daxil oldu. Burada Şövkət, musiqi və teatra böyük marağı olan mühəndis Yakov M. Lubarski ilə ailə həyatı qurdu. Onlar hələ Milanda olarkən tanış olmuşdular və tezliklə Lubarski Məmmədovanın ən yaxın dostlarından və himayədarlarından birinə çevrilmişdi.
Kiyevdə onun peşə sahəsində ən mühüm tanışlığı tanınmış rus bəstəkarı Reynhold M. Qliyerlə oldu. Məmmədova onu Azərbaycan milli musiqisi ilə tanış edən və Azərbaycana dəvət edən ilk şəxs oldu. Qliyer Azərbaycana gələrək Qarabağın çoxsaylı muğam ifaçıları ilə görüşmək qərarına gəldi. Bu, ona böyük təsir bağışladı. Daha sonra o, vurulduğu musiqi motivləri əsasında möhtəşəm "Şahsənəm" operasını yazdı. Operanın premyerası 1934-cü il mayın 4 Bakıda oldu. Bu premyera həmin dövrdə Azərbaycanın ən məşhur kişi vokalisti Bülbül ilə birgə əsas ariyaları ifa edən Şövkət Məmmədovaya həsr olunmuşdu.

Konsertlər və operalar

1921-ci ildən başlayaraq Məmmədovanın səhnə karyerası onu Paris, Milan, Moskva, Leninqrad (Sankt Peterburq) və Tiflisə apardı. O, "Traviata" (Verdi), "Sevilya Bərbəri" (Rossini), "Riqoletto" (Verdi), "Lakme" (Delib), "Quqenotlar" (Meyerbeer), "Hoffmanın Nağılları" (Offenbax), "Qar Qız" (Rimski-Korsakov) və "Nərgiz" (Müslim Maqomayev) əsərlərində ariyalar ifa edirdi.

1925-ci ildə Məmmədova Dünya Dekorativ İncəsənət Sərgisində iştirak etmək üçün Parisə dəvət olundu. Onun yerli Qafqaz mahnılar seçimi musiqişünazlar və etnoqraflarda elə böyük təəssürat oyatdı ki, onlar Şövkəti Sorbonna Universitetinə dəvət edərək ondan folklor kursları üçün mahnıları lentə köçürməyi xahiş etdilər. O, "Küçələrə su səpmişəm", "Sən ki belə deyildin" və "Yeri ha yeri" kimi məşhur azərbaycan mahnılarını seçdi.

1927-ci ildə Şövkət Məmmədova öz təhsilini davam etdirmək üçün yenidən İtaliyaya qayıtdı. Artıq həmin vaxt bir peşəkar opera müğənnisi kimi tanınmasına baxmayaraq o, anlayırdı ki, hələ öyrənilməsi şey çoxdu. 1930-cu ildə o, Bakının Opera Teatrına Qayıtdı.

Pedaqoq

İstedadlı ifaçı kimi tanınmasına baxmayaraq Şövkət Məmmədova Azərbaycan bəstəkar musiqisinin yaranmasında daha vacib rol oynayan bir şəxs olmuşdu. 1923-cü ildə o, Bakıda ilk dəfə olaraq Musiqi Notları Nəşriyyatının əsasını qoydu. Onun məqsədi "tək Türk xalqlarının deyil, eləcə də bütün Müsəlman aləminin məşhur musiqi melodiyalarını çapdan buraxmaq idi."

1923-cü ildə Şövkət Məmmədova Bakıda sonradan Teatr İnstitutuna çevrilən, hal-hazırda isə İncəsənət Universiteti adlanan Teatr Kollecinin əsasını qoydu. Onun teatr səhnəsində böyük təcrübəsi "Azərbaycan Musiqi Teatrın İnkişafı" adlı kitabın yazılmasında ona geniş material verdi.

1938-ci ildə Moskvada keçirilən 10 günlük Azərbaycan Mədəniyyət Festivalında Şövkət Məmmədova “SSRİ Xalq Artisti” fəxri adına layiq görüldü. Bu, keçmiş SSRİ-də artistlərə verilən ən yüksək fəxri ad idi. Həmin festival günlərində Üzeyir Hacıbəyov və Bülbül də bu fəxri ada layiq görülmüş musiqiçilər arasında idilər. Onlar bu ada Üzeyir Hacıbəyovun şah əsəri olan “Koroğlu” operasındakı əvəzsiz xidmətlərinə görə layiq görülmüşdülər. Sovet İttifaqının yaranmasından 18 il keçmişdi və bu 3 şəxs Azərbaycanın bu fəxri ada layiq görülən ilk 3 musiqiçiləri idi.
1939-cu ildən sonra Şövkət Məmmədova əsas solistlərindən biri olduğu Opera və Balet Teatrın direktoru oldu. Bir il sonra yenə də müsəlman dünyasında ilk olan Əfrasiyab Badalbəylinin “Qız Qalası” baleti səhnəyə qoyuldu.

İkinci Dünya Müharibəsi zamanı Şövkət Məmmədova ön cəbhədə döyüşən əsgərlər üçün musiqi proqramlarının təşkil olunmasında fəal iştirak edirdi. 1942-ci ildə o, Təbrizdə (İranda Şərqi Azərbaycan əyalətinin paytaxtı) çıxış etdi.

Son

Bütün bu çıxışlar və məsuliyyət əhatəsində Şövkət Məmmədova ən çox sevdiyi peşə olan müəllimlik fəaliyyətinə də vaxt tapa bilirdi. Hələ də səhnədə çıxış etmək iqtidarında olmasına baxmayaraq Şövkət Məmmədova özünü tamamilə tələbələrinə həsr etməyi qərara aldı. Və beləliklə o, Bakı Musiqi Konservatoriyasının Vokal Şöbəsinin müdiri oldu. Burada o, həm İtaliya, həm Azərbaycan opera ənənələrindən dərs deyirdi.

Onun tələbələrindən çoxu, Vaqif Kərimov, Firəngiz Allahverdiyeva, Yuliya Yakuboviç və Lyudmila Platonova daxil olmaqla “SSRİ Xalq Artisti” adına layiq görüldülər.

Hər şeydən öncə isə Şövkət Məmmədova incə qəlbli, müdrik və öz işinə vurğun olan bir pedaqoq kimi xatırlanır. Hətta Konservatoriyaya gedə bilmədikdə belə o, müəllimlik fəaliyyitini öz evində davam etdirirdi. 1981-ci il iyunun 11 Şövkət Məmmədova yuxuda ikən öz dünyasını dəyişdi. Bunu bilməyən tələbələri isə ertəsi gün növbəti məşğələyə gəlmişdilər.

Məqalənin müəllifi Fuad Axundov tarix elminə böyük maraq göstərir və əsrin əvvəllərində Bakıda yaşamış neft milyonçularının həyatını və onların tikdirdiyi binaların memarlığını öyrənməkdə ixtisaslaşıb. Şövkət Məmmədovanın qızı Aidanın da bu məqalənin hazırlanmasında böyük rolu olub. Əməkdaşlarımızla anası haqqında şəxsi xatirələri ilə bölüşərək o, həm də məqaləni ailə arxivindən olan şəkillərlə və “Azerbaijan İnternational” jurnalının saytı <http://azer.com>da dinləyə biləcəyiniz Şövkət Məmmədovanın ifa etdiyi musiqi parçaları ilə təmin edib.

---

Tərcümə edən və veb üçün hazırlayan: Arzu Ağayeva